# Daşkəsəndə 20 Yanvar anılıb

Ümumxalq Hüzn Gününün 33-cü ildönümü ilə əlaqədar Daşkəsəndəki Heydər Əliyev Mərkəzində "20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda tədbir keçirilib.

Mərkəzin direktoru Nailə Məmmədova məruzə ilə çıxış edərək keçmiş sovetlər birliyinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktından, insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən söz açmışdır. Qeyd etmişdir ki, həmin günlər xalqının səsinə ilk olaraq səs verən Ümummilli Lider Heydər Əliyev oldu: "Ulu Öndər hadisədən dərhal sonra ölkəmizin Moskvadakı daimi nümayəndəliyinə gələrək təcavüzə kəskin etirazını bildirmişdir. Onun 1990-cı il 21 yanvar tarixli bəyanatı isə faciəyə verilən ilk siyasi qiymət olmuşdur. Ümummilli Lider xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəlmiş və 20 Yanvar hadisələrinə dövlət səviyyəsində siyasi qiymət verilmişdir".

Digər çıxış edənlər Ulu Öndərin siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi ilə şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların ailələrinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən söhbət açmışlar.

Tədbirin sonunda uşaq, yeniyetmə və gənclərin əl işlərindən ibarət "20 Yanvar milli qürur günümüzdür" adlı sərgiyə baxış keçirilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 18 yanvar.- S.10.